**UOT:** 34:340.14
**KBT:** 67.71

# Hüquq sistemlərinin təsnifatı

**Habil Qurbanov***

**Abstrakt.** Dünyanın hüquq sistemlərinin əksəriyyətinin əsasında ümumi mədəniyyətin və hüquq mədəniyyətinin elementləri durur. Dövlətlərin hər birinin öz milli hüququna malik olması onun sosial iqtisadi, siyasi və mədəni orijinallığını əks etdirir. Bu da öz növbəsində onların milli hüquq sistemlərinin bərqərar olması ilə nəticələnir. Milli hüquq sistemlərinin məzmununda həm dövlət formalarına xas olan, həm də bu və ya digər hüquq tipinə malik ölkə üçün səciyyəvi olan xüsusiyyətlər nəzərə çarpır. Müxtəlif birləşmələr çərçivəsində hüquq ailələri qrupları və ayrı-ayrı altqruplar fərqləndirilir. Belə hüquq ailələri qrupları və altqruplar müxtəlif səbəblərə görə qarışıq xarakter daşıyan dövlətlərin orijinal hüquq sistemlərindən ibarətdir.

**Açar sözlər:** hüquq ailəsi, təsnifat, müqayisəli hüquqşünaslıq, tipologiya, hüquq sistemləri, meyarlar

## 1.Giriş

Qərb ölkələrinin müqayisəli hüquq ədəbiyyatında hüquq sistemlərinin təsnifatı növləri, meyarları, habelə onların müvafiq hüquq ailələrində qruplaşdırılması ən müxtəlif mövqelərdən nəzərdən keçirilmişdir. Lakin meyarlar və qruplaşdırma variantları ilə yanaşı, hüquq sistemləri təsnifatının bəzi başqa meyarları da ayrı-ayrı müəlliflər tərəfindən müxtəlif dövrlərdə elmi ədəbiyyatda irəli sürülmüşdür. Məsələn, hələ XX yüzilliyin başlancığında hüquq sistemlərinin irqi və dil meyarları əsasında təsnifatı və bu meyarlara müvafiq surətdə onların hüquq ailələrində qruplaşdırılması təklif edilirdi. Bu meyar əsasında hüquq sistemlərinin aşağıdakı qrupları fərqləndirilirdi:

-hind-avropa hüquq sistemləri qrupu;
-semit hüquq sistemləri (hüquq ailələri) qrupu;
-monqoloid hüquq sistemləri (hüquq ailələri) qrupu.

Hind-avropa hüquq sistemləri qrupu da öz növbəsində hüquq sistemlərinin aşağıdakı alt qruplarına bölünürdü:

-yunan-roma hüquq sistemləri qrupu;
-german hüquq sistemləri qrupu;
-ingilis-sakson hüquq sistemləri qrupu;
-slavyan hüquq sistemləri qrupu;

* AMEA, Hüquq və İnsan Haqları İnstitutu, baş elmi işçi, hüquq üzrə elmlər doktoru, professor; Bakı, Azərbaycan
E-mail: professorqurbanov@yandex.com
https://orcid.org/0000-0002-1893-208X
**Məqaləyə istinad:** Qurbanov, H. [2022]. Hüquq sistemlərinin təsnifatı. *“Metafizika” jurnalı, 5*(2), səh.10-28.
***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 12.11.2021*
*Təkrar işlənməyə göndərilmişdir: 18.01.2022*
*Çapa qəbul edilmişdir: 03.06.2022*

-İran hüquq sistemləri qrupu və s.

Daha sonrakı dövrdə hüquq sistemlərinin təsnifatının hüquq mədəniyyətinin xüsusiyyətləri, hüququn mahiyyəti və məzmunu, hüquqi ideologiya,hüququn mənbələrinin xüsusiyyətləri kimi meyarlardan istifadəyə səylər göstərilmişdir. İkinci Dünya müharibəsindən sonrakı dövrdən hazıradək hüquq sistemlərinin təsnifatının, bu sistemlərin tarixi köklərinin ümumiliyi, hüquqi təfəkkürün stil və modelinin oxşarlığı, əsas hüquq institutlarının yaxınlığı və s. kimi meyarlarına xüsusi diqqət yetirilmişdir. Əsasında milli hüquq sistemlərinin qruplaşdırılması aparılan meyarlar haqqında danışarkən nəzərdən qaçırmaq olmaz ki, belə qruplaşdırmalarda siyasi, ideoloji və ən başlıcası mədəni amillər diqqət mərkəzində saxlanılır. Elmi ədəbiyyatda dəfələrlə vurğulanan və gündəlik həyatda özünün daim təsdiqini tapan belə bir faktı unutmaq olmaz ki, hər bir hüquq sistemi, onunla yanaşı həmçinin də hüquq ailəsi xüsusi mədəni amillərin bütöv kompleksinin "unikal məhsulu" [4, s.36] qismində dəyərləndirilir və belə bir mülahizə yürüdülür ki, *"hər bir mədəniyyətin öz xüsusi hüquqi həyatı, hər bir hüquqi həyatın isə özünün xüsusi mədəniyyəti vardır"* [4, s.36]. Amerikalı alim D.Blek haqlı olaraq qeyd edirdi ki, hər bir hüquq sistemi xeyli dərəcədə mədəniyyətin inkişafının müvafiq səviyyəsi ilə şərtləşən və mədəniyyətin xüsusiyyətlərindən asılı olaraq əriyən *"unikal fərdiyyət"*dən ibarətdir. Blekin tezisi belə səslənir: hüquq mədəniyyət, mədəniyyət isə hüquqdur. Mədəni amillər hüquqla birlikdə yaranmışdır və deməli, o, hüququn özü kimi eyni dərəcədə qədimdir. [9, s.124]

## 2.Hüquq sistemlərinin tipologiyası problemi

Şübhə yoxdur ki, dünyanın hüquq sistemlərinin əksəriyyətinin əsasında ümumi mədəniyyətin və hüquq mədəniyyətinin elementləri durur. Deməli, bu amil digər amillərlə birgə götürülərsə, onlar hüquq sistemlərinin meyarları qismində çıxış edə bilərlər.

Bu meyarlar əsasında əvvəllər adları çəkilən hüquq ailələri ilə yanaşı və ya bu hüquq ailələri çərçivəsində müqayisəli hüquq ədəbiyyatında bir sıra hallarda aşağıdakı hüquq ailələri də fərqləndirilir:

- latın hüquq ailəsi;
- german hüquq ailəsi;
- şimal hüquq ailəsi (birinci üç təklif C.Merrimenə məxsusdur. [4, s.42]);
- Afrika hüquq ailəsi;
- slavyan hüquq ailəsi [4, s.43].

Hüquq sistemlərinin təsnifat meyarlarının dairəsinin və hüquq ailələrinin müxtəlif növlərinin fərqləndirilməsi məsələsinin müəyyən edilməsinə baxışlar və yanaşmalar çoxsaylıdır. Bu da tamamilə təbii və qanunauyğundur, çünki nəzərdən keçirilən materiya son dərəcə mürəkkəb, çoxşaxəli və məlum dərəcədə ziddiyyətlidir.

Haqqında söhbət gedən problemlə bağlı müxtəlif nöqteyi-nəzərləri və yanaşmaları ümumi müstəvi üzərində birləşdirmək yuxarıda qeyd edilən və digər səbəblərə görə mümkün deyil. Digər tərəfdən, buna heç ehtiyac da yoxdur. Məsələn, M.N.Marçenko belə hesab edir ki, nəzərdən keçirilən problemin həllinə baxışların və yanaşmaların çoxcəhətliliyi iki möhkəm əsasa malik olan və geniş yayılmış nüfuzlu hüquq ailəsinin- ingilis-sakson və roman-german hüquq sistemlərinin qarşısında acizdirlər. Adları xatirladılan hər iki hüquq ailəsi faydalı və konstruktivdirlər. [7, s.65]

Belə bir mühüm cəhəti nəzərə almaq son dərəcə vacibdir ki, ictimai həyatda və real gerçəklikdə bitmiş hüquqi və ya hər hansı digər təsnifat yoxdur və ola da bilməz. Hüquq sistemlərinin təsnifatının aparıldığı prosesdə fərqləndirilən hüquq ailəsi labüd surətdə nisbi xarakter daşı-yacaqdır.

Onların nisbi xarakteri müxtəlif formalarda və münasibətlərdə təzahür edir. Bu, aşağıdakılarda daha dürüst və ardıcıllıqla ifadə olunur.

***Birincisi,*** hüquqi massivlərdə hüququn bütöv institutlarının, hüquq sahələrinin və hətta hüquq sistemlərinin öz təbiəti və xarakterinə görə digər hüquq ailələrinə aid olan eyni hüquq ailələrinin olması. Yəni hüquq ailələrindən birinin təbiəti və xarakterində mövcud olan ümumiliklər və ya spesifiklikləri bir neçə hüquq ailəsində müşahidə etmək mümkündür. Nümunə qismində Luiziana ştatının *(ABŞ)* hüquq sisteminə istinad etmək olar. Fransanın keçmiş müstəmləkəsi olmuş bu ştatın ərazisində qitə, daha dəqiq desək, fransız hüququnun əsas əlamətləri tarixən təşəkkül tapmışdır və həmin əlamətlər bu gün də qorunub saxlanmaqdadır. Eyni zamanda, məlum olduğu kimi, Luizinanın da hüquq sisteminin mövcud olduğu və fəaliyyət göstərdiyi ABŞ-ın hüquq sistemi qitə hüququnun deyil, ümumi hüququn mühüm tərkib hissəsidir.

Kvebek (Kanada) əyalətinin hüquq sistemi də yuxarıda qeyd edilənlərə analoji nümunə ola bilər. Mahiyyətinə görə və genetik cəhətdən qitə hüququ ailələri ilə bağlı olan Kvebekin hüquq sistemi formal və faktiki cəhətdən ümumi hüquq sistemində ayrılmaz tərkib hissələrdən biri qismində çıxış edir [9, s.132].

Gətirilən nümunələrə Cənubi Afrikanın hüquq sisteminə edilən istinadlar da əlavə oluna bilər. Danimarkanın hüquq sisteminin təsiri altında formalaşan və fəaliyyət göstərən Cənubi Afrika Respublikasının hüquq sistemi digər hüquq ailələrinin də nümunələrinə müraciət edir.

***İkincisi,*** hüquq ailələrinin bilavasitə özlərində olduğu kimi, hüquq sistemlərinin hüquq ailələrinə bölgüsü prosesinin nisbi xarakteri bir hüquq ailəsinin digər hüquq ailələrinin normalarına, institutlarına və mədəni ənənələrinə uyğun olaraq yaranması və fəaliyyəti əsasında duran normaların,

institutların, hüquqi və mədəni ənənələrin qarşılıqlı təşəkkültapmasında təzahür edir. Belə təşəkkültapma o vaxt tamamilə təbii və xüsusən də obyektiv hesab olunur ki, müxtəlif hüquq ailələri eyni sivilizasiyaya bilavasitə aid olurlar və ya buna cəlb olunurlar. Məsələn, bu, ümumi sivil və sosialist hüquq ənənələrinə aiddir. Bəzi tədqiqatçıların fikrincə, belə hüquqi ənənə "bir-birinə son dərəcə yaxındır", çünki o, "Avropa sivilizasiyasının inkişaf prosesi ilə sıx bağlıdır". Onların hamısı "Qərbin tarix və mədəniyyət kontekstində formalaşmış" ideyaları və özlərinə uyğun olan institutları əks etdirirlər [5, s.102]

Nəhayət, üçüncüsü, konvergensiyanın obyektiv prosesi və ya iki əsas hüquq ailəsinin bir-birinə yaxınlaşması, habelə amerikan hüququnun Avropada resepsiyası hüquq sistemlərinin təsnifat prosesinin nisbi xarakterində və müvafiq surətdə hüquq ailələrinin nisbi xarakterində təzahür et-məyə bilməz. Qeyd etmək lazımdır ki, buna hüququn resepsiyası prosesi xüsusilə güclütəsir göstərir. Belə ki, Avropa hələ XI-XII yüzilliklərdə Qədim Roma hüququnun resepsiyası gedişində bunu yaxından hiss etmişdi.

İngilis-sakson və roman-german hüquq ailələrinin bir-birinə qarşılıqlı yaxınlaşması və ya konvergensiyası ənənəsi haqqında danışarkən tədqiqatçılar onların tarixi bazasının ümumiliyi kimi arqumentə istinad edirlər. Bu isə ondan ibarətdir ki, milli dövlətin yaranmasınadək olan dövrdə bu iki əsas hüquq ailəsinin meydana gəldiyi ərazilərdəki ölkələr də daxil olmaqla, bütün sivil dünya "eyni hüquq sisteminin- məhz roman-kanonik hüquq sisteminin köməyi ilə idarə edilmişdir" [5, s.165].

Ümumi hüquq sistemi ilə qitə hüquq sisteminin bir-birinə yaxınlaşması prosesi də onunla şərtləşdirilir və stimullaşdırılır ki, hüdudlarında həmin hüquq ailələrinin yarandığı və inkişaf etdiyi ölkələr arasında cəmiyyətin təkamül dərəcəsinə uyğun olaraq, o cümlədən Qərbi Avropada, Avropa Birliyinin yaradılmasına gətirib çıxaran müxtəliftərəfli əlaqələr bərqərar olmuş və dərinləşmişdir.

Amerika hüququnun Qərbi Avropada resepsiyası ilə bağlı isə onu qeyd etmək olar ki, Qərbi Avropa tədqiqatçılarının qənaətinə görə bu halda söhbət Avropa hüququnun bəzi sahələri və institutlarının elementar amerikanlaşdırılması, ümumi hüququn mühümtərkib hissələrindən biri kimi amerikan hüququnun bəzi elementlərinin roman-german və qitə hüququnun nüvəsinə metodoloji cəhətdən köçürülməsi haqqında gedir. Qərbi Avropa ölkələrində və qismən də digər ölkələrdə Amerika hüququnun resepsiyası həm də Amerikanın sənaye, ticarət və maliyyə ekspansiyası ilə şərtləşdirilə bilər. Şübhəsiz ki, bu, intellektual ekspansiya, yəni amerikan hüququnun resepsiyası ilə bağlı deyildi. Bu, hər şeydən əvvəl, maddi ekspansiya idi.

Həmin tarixi dövrdə kapitalizmin ümumi böhranının dərinləşməsi ilə və bir sıra digər amillərlə bağlı ABŞ yenə də öz dünya ağalığından əl çəkmək istəməmiş və dünyanın bir sıra ölkələrini özünün təsir dairəsində saxlamağa böyük cəhdlər göstərmişdir. Bu cəhətdən hüquq da istisnalıq təşkil etməmişdir. Ona görə də Qərbi Avropada Roma hüququnun resepsiyası ilə amerikan hüququnun resepsiyası arasında dəqiq paralellər aparılması üçün tam əsaslar vardır [6, s.34].

Hüquq sistemlərinin və hüquq ailələrinin özlərinin təsnifatının nisbi xarakteri haqqında müasir dünyada mövcud olan qarışıq və ya “hibridli” hüquq sistemləri də meydana çıxırlar. Bu hüquq sistemləri özündə ümumi və sivil hüququn elementlərini ehtiva edirlər. Filippinin, Yaponiyanın, Şotlandiyanın, Şri-Lankanın, Mavrikiyanın, Kamerunun və s. hüquq sistemləri həmin hüquq sistemlərinə aid olunur [5, s.166].

**3.Hüquq sistemlərinin tipologiyası problemi**

Müqayisəli hüquqşünaslıqda hüquq sistemlərinin müasir mütəşəkkil dövlət cəmiyyətlərin (birliklərin) hüquq sistemlərinin spesifikliyi və çoxcəhətliliyinə baxışların inkişafını əks etdirən müxtəlif təsnifatlar haqqında məlumatlar verildi. Bununla belə, sistemləşdirici əlamətlərin fərqləndirilməsi üçün meyarların seçilməsinə istənilən yanaşmalar son dərəcə subyektiv xarakterə malikdirlər. Hüquq sistemləri tədqiqatçılarının özlərinin də etiraf etdikləri kimi, *“hüquqi gerçəkliyi əks etdirən bitkin təsnifat yoxdur və ola da olmaz”* [7, s.63]. Deyilənlər ilk növbədə hüquq sistemlərinin təsnifat meyarlarının seçilməsinə aiddir.

Bəşəriyyətin tarixində çoxsaylı dövlətlər olmuşdur. Onların içərisində Şərq quldarlığı aristokratiyası, antik şəhər-polisləri (şəhər-dövlətləri), qədim və orta əsr imperiyaları, burjua respublikaları, sosialist dövlətləri və milli dövlət qurumları mövcud olub. Bu qədər çoxcəhətli və müxtəlif olan mütəşəkkil dövlət- cəmiyyət qurumunun bütün ərazisində əhaliyə tam rəhbərliyi hüququn vasitəsi ilə həyata keçirmək qabiliyyətinə malik ümumi ali hakimiyyətin təşkilinin yalnız dövlətə məxsus olduğu da tarixə bəllidir.

Nəzərə almaq lazımdır ki, dövlətin heç də bütün prinsipial əlamətləri hətta ölçüsüz geniş tərifdə yerləşdirilə bilməz. Lakin onların içərisində dövlətin elə mühümvəspesifik cəhətləri fərqləndirilir ki, onları əks etdirməmək olmaz. Bunlara hüquq, hüquqi cəhətdən məcburi olan hökmləri nəşr etmək və həyata keçirmək imkanı və qabiliyyəti aiddir. Ümumi ali hakimiyyətin təşkilinin hüquqi formaları və vasitələri məhz dövlətə xasdır, çünki hüquqi başlanğıclar olmadan qanunvericilik, hüquqyaratma, hüququ tətbiqetmə və hüquq- mühafizə orqanları göründükləri kimi ola bilməz və

cəmiyyətə rəhbərlik üzrə öz funksiyalarını yerinə yetirmək iqtidarında ola bilməzlər.

**4.Dövlətlərin ənənəvi təsnifatları**

Dövlətlərin ənənəvi təsnifatlarını ən müxtəlif əsaslar üzrə aşağıdakı kimi fərqləndirmək mümkündür.

1. Mütəşəkkil dövlət-cəmiyyətin əmələgəlmə üsuluna görə aşağıdakı dövlətlərə diqqət yetirilir:

-inqilabi yolla və ya təkamül yolu ilə yaradılan dövlətlər;

-dövlətlərin birləşməsi və yeni vahid dövlətin təşkili nəticəsində yaradılan dövlətlər;

-dövlətlərin bir neçə yeni dövlətə ayrılması nəticəsində yaradılan dövlətlər;

-dövlət quruluşunun dəyişməsi ilə əlaqədar başqa dövlətə birləşmə (qatılma) nəticəsində yaradılan dövlətlər.

2. Dövlətlərin ümumi xarakteristikalarındakı fərqlərə görə aşağıdakı dövlət tiplərini bir-birinə qarşı qoymaq olar:

-sabit və qeyri-sabit dövlətlər;

-sosial novasiyalara nail olan və nail olmayan dövlətlər;

-ictimai həyatın yüksək inkişaf sürətilə və ləng sürətlə getdiyi dövlətlər;

-normal şəraitdə mövcud olan və fövqəladə vəziyyət şəraitində işləyən dövlətlər;

-bütövlüyünü qorumağa qadir olan və dağılmaqda olan dövlətlər;

-gənc və müstəqil dövlətçiliyin mövcud olmasının qədim ənənələrinə malik olan dövlətlər.

3. Cəmiyyətdə şəxsiyyətin hüquqi cəhətdən müdafiə olunma dərəcəsinə görə aşağıdakı dövlətlər fərqləndirilir:

-Qərb tipli dövlətlər. Belə dövlətlərdə insan fərdiyyətçiliyi konstitusiyalaşdırılır, insanın, vətəndaşın hüquq və azadlıqlarının üstünlüyü təmin edilir;

-Şərq tipli dövlətlər. Belə dövlətlərdə sakral (qurban verməni tələb edən) təlimlər (daha çox dini təlimlər) əsasında insanın üzərinə, hər şeydən əvvəl, kollektivçilik vəzifələri qoyulur, bütövlükdə cəmiyyətin layiqli üzvü olmaq, cəmiyyətin və dövlətin mənafelərini şəxsi mənafelərdən üstün tutmaq və cəmiyyət, dövlət yolunda heç nəyiəsirgəməmək tələbi prioriret təşkil edir ki, bu da son həddə dövlətin şəxsiyyətdən (onun hüquq və azadlıqlarından) üstün olduğunu əks etdirir;

-dövlətin keçid dövrünü əks etdirən qarışıq tipli dövlətlər.

4. Dövlətin formalarının məzmun cəhətlərinə görə aşağıdakı dövlətlər müəyyən edilir:

-monist dövlətlər (bu dövlətlər üçün dövləti idarəetmənin təşkilində rolların bölgüsünün olmaması və dövlət hakimiyyətinin bir mərkəzin əlində cəmləşdirilməsi səciyyəvidir);

-plüralist dövlətlər (bu dövlətlərə hakimiyyətin bölgüsü və hakimiyyət budaqlarının bir-biri ilə qarşılıqlı təsirdə fəaliyyət göstərmələri xasdır);

-seqmentar dövlətlər (idarəetmə elementlərinin "müvazinətinə" malik olmayan, göstərilən dövlətlər içərisində aralıq hadisə kimi təzahür edən dövlətlər).

5. Sosial xarakteristikasına görə aşağıdakı dövlətlər fərqləndirilir:

-polietnik və eynicinsli etnik dövlətlər;

-siyasiləşdirilmiş və apolitik əhalisi olan dövlətlər;

-normal və sosial strukturları deformasiyaya uğramış dövlətlər;

-hökmran sosial təbəqələrin olmadığı və müəyyən sinif və ya etnik qrupların hökmran olduqları dövlətlər.

6. İdarəçilik formasına görə tarixən aşağıdakı iki növ dövlətlər fərqləndirilir:

-ali dövlət hakimiyyəti orqanlarının klassik növlərindən biri kimi monarxiya (qeyri-məhdud və ya mütləq monarxiya);

-respublika (prezidentli, parlamentli və qarışıq respublika).

7. Dövlətin ərazidaxili quruluşuna görə aşağıdakı dövlətlər mövcuddur:

-unitar dövlətlər (sadə və mürəkkəb quruluşa malik olan unitar dövlətlər);

-regional və ya federativ dövlətlər (ərazi üzrə, milli, qarışıq federasiyalar).

8. Təbii mühitin və təsərrüfat mühitinin xüsusiyyətlərinə görə aşağıdakı dövlətlər fərqləndirilir:

-ətraf təbii mühitlə harmoniyada olan və ya ona qarşısıalınmaz zərər vuran dövlətlər;

-qitə və ada dövlətləri;

-anklav və beynəlxalq kommunikasiyalara azad çıxışı olan dövlətlər;

-bazar iqtisadiyyatına və qeyri-bazar təsərrüfatının mərkəzləşdirilmiş idarəetməsinə malik olan dövlətlər;

-iqtisadi potensialı böyük və ya xırda olan dövlətlər.

9. Dövlət-siyasi rejimin formasına görə, dövlət hakimiyyətinin gerçəkləşdirilməsi üsul və metodlarının məcmusu kimi aşağıdakı dövlətlər mövcuddur:

-totalitar dövlətlər;

-avtoritar dövlətlər;

-demokratik dövlətlər;

-keçid rejimli (liberal-demokratik və ya liberal-avtoritar) dövlətlər.

10. Ümumi hakimiyyətin məzmununa, dini başlanğıc və ehkamların təsir dərəcəsinə görə aşağıdakı dövlətlər mövcuddur:

-ateist dövlətlər;

-dünyəvi dövlətlər;

-klerikal dövlətlər;

-teist (teokratik) dövlətlər.

Cəmiyyətdə müəyyən konfessiyanın və onun normativ postulatlarının üstunlük amilləri nəzərdən keçirilərkən aşağıdakı dövlətlər fərqləndirilir:

-xristian (katolik, pravoslav və ya protestant) dövlətləri;

-İslam (şiə və ya sünni, yaxud serkulyarlaşdırılmış, harmonik və ya Qurana əsaslanan) dövlətləri;

-indus dövlətləri;

-buddist dövlətləri;

-iudaist dövlətlər.

11. Hakimiyyətin təşkili və fəaliyyət spesifikliyinə görə dövlətlərin aşağıdakı tipologiyası təklif olunur:

- huquqi və qeyri-hüquqi dövlətlər;

-legitim və leqal dövlətlər;

-burokratikləşdirilmiş və bürokratikləşdirilməmiş dövlətlər;

-mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş dövlətlər;

-konfrantasiyalı və sülhsevər dövlətlər.

12. Muasir dövlətin huquqi cəhətdən institutlaşdırılması dərəcəsinə görə aşağıdakı dövlətlər fərqləndirilir:

-mülki dövlət;

-hüquqi dövlət;

-demokratik-hüquqi dövlət;

-sosial-hüquqi dövlət.

Yuxarıda təqdim edilən tipologiya ilə yanaşı, habelə bu tipologiya çərçivəsində çoxsaylı sədlər mövcuddur. Onların fərqləndirilməsi dövlətşünaslıq haqqında mənbələrdə göstərilir. Dövlətlərin tiplərinin və onların çoxcəhətliliyinin göstərilməsi onlara uyğun olan normativ-hüquqi strukturların nəzərdən keçirilməsi ilə əlaqədar zərurət təşkil edir.

Dövlətlərin hər birinin öz milli hüququna malik olması onun sosial-iqtisadi, siyasi və mədəni orijinallığını əks etdirir. Bu da öz növbəsində onların milli hüquq sistemlərinin bərqərar olması ilə nəticələnir. Milli hüquq sistemlərinin məzmununda həm yuxarıda sadalanan dövlət formalarına xas olan, həm də bu və ya digər hüquq tipinə malik ölkə üçün səciyyəvi olan xüsusiyyətlər nəzərə çarpır.

**5.Milli hüquq sistemi**

Milli hüquq sistemi öz spesifikliyinə, strukturuna və məqsədlərinə malikdir. O, müəyyən tarixi zaman kəsiyində konkret coğrafi ərazidə formalaşır, faliyyət göstərir və inkişaf edir, əhalinin etnoqrafik xüsusiyyətləri ilə səciyyələndirilir. Milli hüquq sistemi cəmiyyətlərdə müxtəlif ənənələrlə, inaclarla yaradılır, hüquq mənbələrinin formalaşması yolunda rəngarəngllikləri ilə fərqlənir.

Müxtəlif dövlətlərin hüquq sistemlərinə differensiasiyalaşdırılmış yanaşma hüquq elmində XX-XXI yüzilliklər ərzində təşəkkül tapmışdır. Dünyanın hüquqi xəritəsinin birtərəfli ola bilməməsi nəzərə alınarsa, onun, çoxsaylı və mürəkkəb çoxfunksiyalı prosesləri əks etdirdiyini müşa-hidə etmək olar. Buna görə də hüquq sistemlərinin təsnifat məsələsi həm hüquq nəzəriyyəsi, həm də müqayisəli hüquqşünaslığın mühüm problemlərindən biri qismində təzahür edir. Bu gün təsnifləşdirici meyarların sayı onlarladır.

**6.Hüquq ailəsi**

Dövlətlərin hüquq sistemlərinin müəyyən təsnifləşdirici qruplarda birləşməsinə əsaslanan sıralama (dərəcələrə bölgü) daha məhsuldar olmuşdur. Aydın göründüyü kimi, təşəkkül tapmış fərqlərə baxmayaraq, bir cox milli hüquq sistemləri onları birləşdirməyə imkan verən ümumi cəhətlərə malikdirlər. Alim-komparativistlərin fikrincə, ümumi cəhətlərə "hüquq sistemlərinin ailələri", "hüquq dairələri", "hüquq sistemlərinin formaları" "struktur birlikləri", "hüquq sistemlərinin sistemi", "hüququn stili" anlayışları daxildir. [2, s.74]

Dövlətlərin hüquq sistemlərinin müəyyən ümumilik əlaməti üzrə birləşdirilməsi üçün, hər şeydən əvvəl, "hüquq ailəsi" anlayışından istifadə edilir.

Hüquq ailəsi bu, inkişaf ənənələrinin ümumiliyi əsasında fərqləndirilən, habelə onlara hüququn mənbələri, onun strukturu, formalaşmasının tarixi yolları və fəaliyyətinin müasir parametrləri kimi əlamət və cəhətlərin xas olduğu milli hüquq sistemlərinin məcmusudur.

Hüquq ailələri bir sıra amillərin təsiri altında fərqləndirilir. Həmin amillərdən aşağıdakılar diqqəti özünə cəlb edir:

1) tarixi talelərin ümumiliyi (məsələn, Skandinaviya hüququ, Latın Amerikası hüquq ailəsi);

2) ölkədə digər hüquq sistemlərinin (dövlətə sərbəst şəkildə qovuşaraq qanunvericilik, hüququ tətbiqetmə sistemlərinin əlverişli quruluş strukturunu seçirlər) düzümü və fəaliyyətinin əsas sxemlərinin könüllü yaradılması;

3) əvvəlki dövrlərdə müstəmləkə asılılığı nəticəsində metropoliya ölkələri öz hüquqi ideologiya və hüquqi təsisatlarını belə (yəni hüquq ailəsi)

adlandırırdı (məsələn, Fransanın keçmiş müstəmləkələri qanunvericilik hüququnun əsas institutlarını, Britaniya imperiyasından asılı olan ərazilər isə məhkəmə hüququ ideyasını qəbul etməmişdir);

4) ölkədə müəyyən istiqamətə malik rejimlərin müəyyənləşdirilməsi (məsələn, sosialist hüququnun yaradılması və onun müharibədən sonrakı Şərqi Avropaya ekspansiyası) ilə bağlı olan ideoloji asılılıq;

5) regionun və ayrı-ayrı ölkələrin müəyyən ehkam və kanonlara (islamın dünyada yayılması və onun ardınca müsəlman hüququnun bərqərar olması) yaxınlığını (bağlılığını) müəyyən edən dini eynilik.

Hüquq ailələri sabit (onlar bu keyfiyyətdə yüzilliklər ərzində mövcud ola bilərlər) və ya o cümlədən bu və ya digər ölkələrdə dövlət-siyasi rejimin formalarından asılı olmaqla müvəqqəti ola bilərlər. Hüquq ailələrinin olması istənilən halda onların təsnifatı üçün əsasdır. Meyarlar qismində aşağıdakılar çıxış edə bilər:

1) hüquqi ideologiyanın ümumiliyi, buna uyğun olaraq hüquq ailəsində birləşmiş dövlətlərin hüququnun ümumi başlanğıcları qurulur;

2) özündə, məsələn, hüququn mənbələrini, onun strukturunu, hüquqi texnikanı, hüquqi terminologiyanı və s. ehtiva edərək, hüququn həyatda təcəssüm olunmasının üsul və vasitələrinin məcmusu kimi, hüquqi metodologiyanın yaxınlığı;

3) hüquq təhsili sisteminin oxşarlığı və hüquqşünasların hazırlanması;

4) hüquqi peşələrin strukturunun və praktikada çalışan hüquqşünasların fəaliyyət sferasının eyniliyi;

5) hüquq ailəsinə daxil olan dövlətlər üçün ümumi olan hüquqi ənənələr.

Əgər problemin tarixinə diqqət yetirilərsə, aydın şəkildə görmək olar ki, o vaxtlar hüquq sistemlərinin birləşdirilməsi meyarlarına aşağıdakıları aid etmişlər:

1) hüquq sistemlərinin tarixən formalaşması xüsusiyyətləri;

2) irqi və milli meyarlar;

3) ümumi struktur və fərqləndirici əlamətlər;

4) hüququn müxtəlif mənbələrinin rolu;

5) “böyük sivilizasiyalara” və ya qeyri-sivil xalqlara mənsubiyyət;

6) sistemdaxili əlamətlər;

7) beynəlxalq-hüquqi adətlərin, Roma hüququnun və kanonik hüququn, habelə müasir demokratik ənənələrin təsiri;

8) digər hüquqa bənzərlik dərəcəsi və ya ondan törəmə. [3, s.92-93]

Sonda göstərilən fransız hüquqşünasları tərəfindən müasir hüquq sistemlərinin coğrafi, milli və digər spesifik amillərdən asılı olmayan,

məzmun prinsipinə, ümumi və xüsusinin qarşılıqlı əlaqəsinə arxalanan təsnifatı təklif edilmişdir. Bu hüquqşünasların müasir hüquq sistemlərinin keçən yüzilliyin ortalarında sənədlə rəsmiləşdirilmiş bölgüsü özündə hüququn yeddi tipini- ingilis, fransız, alman, Skandinaviya, Rusiya, İslam və hind tipini ehtiva edirdi.

**7.D.Renenin hüquq ailələrinin trixotomiyası**

D.Rene hüquq ailələri içərisində müəyyən fərqləndirmələr üçün inandırıcı meyarların olmadığına görə əvvəlki konsepsiyaları tənqid etmiş və hüquq sistemlərinin təsnifatından ötrü iki əsası təklif etmişdir. Onlardan birincisi ideoloji əsasdır. Bu, müvafiq cəmiyyətin dini və fəlsəfi görüşlərinin, onun sosial, iqtisadi və siyasi strukturunun əks olunmasıdır. İkincisi isə hüquqi-texniki əsasdır. Bu, köməkçi rolunu oynayır. Buna uyğun olaraq o, hüquq ailələrinin trixotomiyasını təklif etmişdir və bu, aşağıdakılardan ibarətdir:

1) roman-german hüququ, ümumi hüquq;
2) sosialist hüququ.

D.Rene qalan bütün növləri ümumi cinsi anlayış- “digər sistemlər” anlayışı adı altında birləşdirmişdir. O, buraya bir-birilə zəif əlaqədə olan islam hüququnu, iudey hüququnu, habelə Uzaq Şərq, Afrika və Madaqaskar hüququnu aid etmişdir. [1, s.95]

Keçmiş sovet hüquqşünaslığında uzun illər ərzində daxili-tipik təsnifat birinci olmuşdur. Bu təsnifata uyğun olaraq hüquq sistemləri sosialist hüququna, burjua hüququna və hüququn iki antipod tipi arasında “tərəddüd edən” hüquq sistemlərinə bölünürdü. O, yalnız bir suala cavab verə bilərdi: hüquq hansı sosial qrupun iradəsini ifadə edə bilər? Lakin, məsələn, nəyə görə burjua hüququ tipi çərçivəsində ümumi hüququn və qitə hüququnun mövcud olmasının mümkün olduğu izah olunmurdu? Bu isə Şimali Amerika və Latın Amerikası hüququ arasında, alman və roman hüququ arasında, hind və yapon hüququ arasında fərqlərin olduğunu əks etdirir.

**8.Hüquq sistemlərinin təsnifatının kəmiyyət və keyfiyyət meyarları**

Bu meyarların təhlili belə nəticəyə gəlməyə imkan verir ki, milli hüquq sistemlərini müxtəlif əsaslara görə fərqləndirmək lazımdır. Fikrimizcə, bu istiqamətdə ən əlverişli və münasib əsaslara kəmiyyət və keyfiyyət kimi elementlərdən ibarət olan meyarlar xidmət edir.

Artıq qeyd edildiyi kimi, müasir dünyada hazırda mövcud olan hüquq sistemlərinin (o cümlədən hüquq ailələrinin) sayı onlarcadır və on-ların ümumi oxşar cəhətləri ilə yanaşı, xüsusi və spesifik cəhətlərinin də sayı bir o qədər hesablanır. Ona görə də kəmiyyət yanaşması zamanı söhbət konkret dövlətlərdə hüquq sistemlərinin sayı və onların bir-biri ilə qarşılıqlı

əlaqələrinin səviyyəsi haqqında gedə bilər1. Beləliklə, kəmiyyət xarakteristikaları milli hüquq sistemlərinin aşağıdakı bölgüsünü müəyyən edir.

1. Unitar dövlətin birsəviyyəli hüquq sistemləri. Belə hüquq sistemləri dedikdə, ayrıca götürülmüş mərkəzləşdirilmiş dövlətin hüququnun, hüquq mədəniyyəti və hüquqi praktikasının məcmusu başa düşülür.

Belə mütəşəkkil dövlət-cəmiyyət əraziləri inzibati vahidlərə (vilayətlərə, qraflıqlara, departamentlərə, əyalətlərə, prefekturalara) bölünür, bu inzibati vahidlərin hüquqi statusu bütünlüklə həmin dövlətin hüquq sistemi vasitəsi ilə müəyyən və tənzim edilir (məsələn, Baltikyanı ölkələrin, Polşanın, Belarusun hüquq sistemləri).

2. Mürəkkəb unitar dövlətin ikisəviyyəli hüquq sistemləri. Belə hüquq sistemləri mərkəzləşdirilmiş dövlət çərçivəsində müəyyən müstəqillikdən istifadə edən özünüidarəetmə ərazilərinin və ya milli-ərazi vahidlərinin yaradılmasına və fəaliyyətinə yol verilən ölkələrdə yaranır və təsbit edilir. Bu hüquq sistemlərində, o cümlədən dövlətin bütün qalan hissələrinin müstəqilliyinin olmadığı zaman bir və ya bir neçə muxtar qurumun dövlət-hüquqi xüsusiyyətləri nəzərə alınır (məsələn, Danimarkanın muxtar Farersk adaları, Qrenlandiya).

3. Regional dövlətlərin (yarımfederasiyaların) ikisəviyyəli hüquq sistemləri. Belə hüquq sistemlərinə keçidə ardıcıl surətdə federativ dövlətlərə çevrilən ölkələrin hüquq sistemləri qismində baxılır. Nümunə qismində Böyük Britaniya (Uels, Şotlandiya və Şimali İrlandiyaya geniş sərbəstlik vermişdir), federasiya elementləri ilə ölkə konstitusiyasının unitar dövlət kimi təsbit etdiyi Cənubi Afrika Respublikası göstərilə bilər. Belə ki CAR-ı təşkil edən 9 əyalət muxtar dövlət səlahiyyətlərinə, o cümlədən qanunvericilik səlahiyyətinə malikdir; muxtariyyətin dövlət adlandırıldığı İspaniyada müstəqillik statusunu nəinki tarixən təşəkkül tapmış milli azlıqların yaşadığı regionlar (Basklar ölkəsi, Kataloniya, Qalisiya), həm də bələdiyyə və əyalətlərin hər biri əldə etmişdir.

4. Federativ dövlətlərin ikisəviyyəli hüquq sistemləri. “Səlahiyyətlərin səlahiyyətlərlə”, yəni konstitusiya novasiyaları yolu ilə öz səlahiyyətlərini müəyyən və tənzim etmək üçün federasiya hüququ ilə və federasiya hüququnun aliliyi, onun federasiya subyektlərinin qanunları üzərində prioriteti ilə müəyyənləşdirilən federal hüquq sistemi, həm də regional hüquq sistemlərinə malikdirlər. Federasiyanın ştatlar (Meksika Birləşmiş Ştatları), əyalətlər (Argentina Respublikası), ərazilər (Efiopiya Federativ Demokratik Respublikası), torpaqlar (Almaniya Federativ Respublikası) və ya kantonlar

(İsveçrə Konfederasiyası) kimi subyektləri belə hüquq sistemlərinə malikdirlər.

5. Federativ dövlətlərin üç səviyyəli hüquq sistemləri. Rusiya Federasiyası buna yeganə nümunədir. Bu ölkədə federal və regional (ölkədə 85 federasiya subyekti mövcuddur) hüquq sistemləri ilə yanaşı, bir sıra diyarların (Altay, Krasnoyarsk) və muxtar dairələrin (Xantı-Mansiysk, Yamalo-Nenetsk, Ust Ordınsk, Buryatiya) də daxil olduğu vilayətlər (məsələn, Tümen vilayəti) fəaliyyət göstərir.

6. Dövlətlərin paralel (dualist) hüquq sistemləri. Planetin müxtəlif hissələrində yerləşmiş xeyli sayda ölkələrin hüquq sistemlərindən ibarət böyük bir (hətta nəhəng) sistem formalaşmışdır. Şübhəsiz ki, həmin hüquq sistemləri ayrı-ayrı dövlətlərə məxsusdur. Bu dövlətlərdə tarixi, ideoloji, regional və digər amillər nəticəsində rəsmi surətdə təsbit edilən və fəaliyyət göstərən hüquq sistemləri ilə yanaşı, dini görüşlər, adətlər, ənənələr və xalqın həyat tərzinə uyğun qurulan və milli hüquqa xeyli təsir göstərən hüquq sistemləri də mövcuddur. Belə hüquq sistemləri (Yaxın Şərq, Tropik Afrika, Sakit okean hövzəsi və digər region ölkələrində) başlıca olaraq köklü əhalinin xüsusi hüquqi statusunu tənzimləyərək, milli hüququ sanki tamamlayırlar.

7. Dövlətlərin rəqabət aparıcı hüquq sistemləri. Belə hüquq sistemlərində tarixən təşəkkül tapmış vəzifə verici adət normaları və ya dini normalar (əsasən davranış qaydaları nəzərdə tutulur) dövlətin hüquq sisteminin tələbləri ilə ziddiyyətdə olurlar. Şərqin dünyəvi dövlətləri buna misal ola bilər. Həmin dövlətlərdə yüz illər ərzində qüvvədə olmuş dini ehkamlar bəzən rəsmi olaraq təsbit edilmiş hüquqi göstərişləri gerçəkləşdirir.

Artıq göstərildiyi kimi, belə keyfiyyətlərin sayı kifayət qədər çoxdur. Lakin sistemləşdirici əlamətlərin fərqləndirilməsi üçün meyarların seçiminə hər hansı yanaşma son dərəcə subyektivdir. Hüquq sistemləri tədqiqatçılarının özlərinin də etiraf etdikləri kimi, real həyatda həqiqətən də mükəmməl hüquqi və ya istənilən səviyyədə başqa bir təsnifata təsadüf etmək qeyri mümkündür. Bu da fərqləndirilən hüquq sistemlərinin hər birinin nisbi olduğuna dəlalət edir və belə nisbilik labüddür. Bu nöqteyi-nəzərdən M.N.Marçenkonun mövqeyi ilə razılaşmaq lazım gəlir. Müəllif hüquq ailələrinin ümumi əlamətlərinin formalaşmasına təsir göstəricilərin, habelə onların təsnif edilməsi meyarlarına aid bir sıra tələblər irəli sürür. Həmin tələblər, o cümlədən aşağıdakı şərtlərə cavab verməlidir:

1) öz əsasında müvəqqəti və təsadüfi deyil, daimi, təməlli amillərə malik olmaq;

2) mümkün qədər daha müəyyən əlamət-meyarlardan ibarət olmaq;

*"Metafizika" Journal*
*2022, vol 5, issue 2, serial 18, pp.10-28*

3) hüquq sistemlərinin təsnifləşdirilməsinin əsası kimi bir deyil, bir neçə əlamət-meyarın əsas qismində götürüldüyü hallarda onlardan yalnız birinin əsas, üstün olması qənaətinə gəlmək;

4) hüquq sistemlərinin- meyarların təsnifatının ümumi cəhətləri tədqiq edilərkən təkcə obyektiv deyil, həm də onların formalaşması prosesinə birbaşa təsir göstərən subyektiv amilləri də nəzərə almaq.

**9.Hüquq sistemlərinin tipologiyasına sivil yanaşma**

Ümumi hüquq nəzəriyyəsində və müqayisəli hüquqşünaslıqda təşəkkül tapmış ənənəni nəzərə alaraq belə hesab edirik ki, dövlətlərin əsas hüquq sistemlərinin onların qruplarının sabitliyi nöqteyi-nəzərindən dövlət-hüquqi tipologiyaya sivil yanaşma mövqeləri əsasında nəzərdən keçirilməsi daha məqsədəuyğundur,

Dövlətlərin tiplərinin xarakteristikasının araşdırılması zamanı, artıq qeyd edildiyi kimi sivilizasiya haqqında nəzəriyyə müəyyən cəmiyyətin unikallığını, təkrarsızlığını fərqləndirməyə imkan yaradır. Bu da həmin cəmiyyətdə müəyyən mədəniyyətin təsbiti sayəsində baş verir. Sivilizasiya insan birliklərinin müəyyən tipindən ibarətdir. Sivilizasiya tiplərinin isə hər biri "*mədəniyyətin özünü eyniləşdirməsi həddinə çatmışdır*" [10, s.203]. Sivilizasiya bilavasitə cəmiyyətin nisbi qapalı vəziyyəti kimi müəyyən olunur. O, həm mədəniyyətin ümumiliyi ilə, həm də iqtisadi, coğrafi, psixoloji, dini və digər amillərə görə fərqləndirilir.

Tədqiq edilən problemə münasibətdə sivil yanaşma çoxamilli meyarlar əsasında dövlət-hüquq sistemlərinin müxtəlifliyini təsəvvür və müqayisə etməyə imkan verir. Əlbəttə, bu təsnifat da ümumən tanınan və ya yeganə hesab oluna bilməz, çünki o, kifayət qədər şərtidir. Buna əsaslı olaraq onun tənqidçiləri diqqət yetirirlər. Tənqidçilər, o cümlədən tipologiyanın özünündəkifayət qədər tam hazırlanmadığını, həm sivilizasiyaların, həm də dövlətlərin tiplərinin və onların hüquq sistemlərinin fərqləndirilməsi üçün müxtəlif əsasların olduğunu göstərirlər. Müəyyən tipologiyaların universallığını təqdim etməyə də cəhdlər göstərilmişdi, çünki tədqiqatçılar tərəfindən kəşf edilmiş amillər, prinsiplər, indikatorlar və ya parametrlər də şərtidir və hamı tərəfindən qənaətbəxş hesab oluna və ya onları hamı ümumən qəbul olunan təsnifatlar qismində qəbul edə bilməzlər.

Hüquq sistemləri ilə bağlı öz təsnifatını əsaslandırmaq üçün sivil yanaşmanın müddəalarına birinci müraciət etmiş komparativistlər içərisində İsveç hüquqşünası M.Malmstryom olub. O, 1969-cu ildə Qərb hüquq ailələri qrupunda fransız, skandinav, Latın Amerikası hüquq ailələrini və ümumi hüquq ailəsini birləşdirərək, bu qrupu ayrılmağı təklif etmişdi. Müəllif rasional şəkildə belə hesab edirdi ki, Qərb sivilizasiyası ümumi cəhətləri ilə

qalan hüquq ailərindən fərqlənən Qərb hüququnu doğurur. Bundan başqa o, sosialist hüquq ailələrini, habelə Asiya və Afrika hüquq qaydasını xüsusi qrupa daxil edirdi.

**10.“Hüququn stili”**

Yeni tarixi şəraitdə (XX yüzilliyin sonunda) “üçlük” komparativistləri muhitində klassik komparativistlərdən uzaqlaşan alman hüquqşünasları K.Svaygert və X.Ketsi də sivil yanaşmanın tərəfdarları hesab edilə bilər. “Hüququn stili” bu və ya digər hüquq ailəsinin fərqləndirici xüsusiyyəti kimi qiymətləndirilir. Hüquq ailələri haqqında nəzəriyyə çərçivəsində hüquqi stili müəyyənləşdirən aşağıdakı amillər fərqləndirilir:

1) hüquq sisteminin tarixi mənşəyi və inkişafı;
2) hüquqi fikrin hökmran doktrinası və onun spesifikliyi;
3) hüquq institutlarının öz orijinallığı ilə fərqlənməsi;
4) hüququn mənbələri və onların təfsiri metodları;
5) ideoloji amillər.

Bu amillərə müvafiq surətdə səkkiz hüquq ailəsi müəyyənedilir. Birinci dörd hüquq ailəsi (roman, alman, Skandinaviya hüququ və ümumi hüquq) Qərb hüququna aid edilir. İkinci dörd hüquq ailəsi (sosialist hüququ, Uzaq Şərq ölkələri hüququ, İslam hüququ, hindu hüququ) isə onların interpretatorları tərəfindən “Qeyri-Qərb hüququ” kimi müəyyənləşdirilmişdir.

Hazırda müqayisəli hüquqşünaslıqda məhz sadalanan hüquq ailələri üstünlük təşkil edir. Həmin təsnifatlar hüququn mənbələrinin növləri, qanunvericilik proseduru və digər hüquqi xüsusiyyətlərin modelləri, ümumi mədəniyyətin və hüquq mədəniyyətinin elementləri, hüquqi ənənələr, hüququn infrastrukturu və prosessual hüququn strukturu üzrə aparılır.

Son onillikdə müqayisəli hüquqşünaslığın tədrisi sahəsində məhsuldar çalışan amerikalı hüquqşünas Kristofer Osakve, M.Malmstryom, K.Svaykert və X.Ketsin təsnifatları əsasında hüququn əsas tipləri qismində aşağıdakıları nəzərdən keçirmişdir:

1) Qərb hüququ (roman-german, ingilis-sakson, skandinav hüququ);
2) kvaziqərb hüququ (sosialist hüququ, roman-german hüququna keçid hüququ;
3) qeyri-Qərb huququ (dini hüquq sistemləri, cənub-şərq və Afrika adətə hüququ).

Müəllif dini qruplar sərhədlərində müsəlman (İslam), yəhudi (iudaizm), kanonik (katolik kilsəsi), hind (hindu) hüququnu fərqləndirir.

**11.“Hüquq sisteminin tipi”**

Bir sıra müasir tədqiqatçılar öz təsnifatlarını tərtib edərkən “hüquq sisteminin tipi” anlayışına müraciət edirlər [8, s.146]. O cümlədən, “müəyyən

zaman və məkan sərhədlərində yerləşən hüquq sistemləri qrupuna xas olan ən mühüm hüquqi əlamətlərin məcmusu”nu həmin anlayışa daxil edirlər. Konkret tipin mühüm əlamətlərini və hüquqi təsir mexanizminin normativlik səviyyəsini müəyyən edən institut, funksional normativ hissələrin xüsusiyyətləri isə əsas tipoloji amillər hesab olunur. Aşağıdakılar əlavə meyarlara aid edilir:

-hüquq normasının xarakteri;

-hüquq normalarının obyektivləşdirilməsinin üsul və formalarının bir-birinə uyğunluğu;

-hüquq normalarının realizəsinin təmini mexanizmi.

L.A.Luts bu meyarlar əsasında, məsələn, dünyanın müasir hüquq sistemlərinin aşağıdakı əsas tiplərini modelləşdirir:

1) roman-german (qitə hüququ) hüququ;

2) ingilis-amerikan (ümumi hüquq) hüququ;

3) qarışıq (tipdaxili: dualist- Skandinaviya, Latın Amerikası hüququ; dini-icma- müsəlman, hindus hüququ; ənənəvi fəlsəfi- yapon, Çin hüququ; adət icma hüququ) hüquq;

4) dövlətlərarası- hüquqi hüquq tipi.

Sivil yanaşmaya əsaslanan yuxarıdakı təsnifatda aşağıdakılar izlənilir:

***-birincisi,*** sosialist hüququnun aşkar diskriminasiyası (bu hüququn təsirini demək olar ki, dünya əhalisinin dörddə biri hiss edir);

***-ikincisi,*** Şimali Avropa və Latın Amerikası faktiki olaraq Asiya-Afrika hüquq dairəsinin təsiri altındadır;

***-üçüncüsü,*** dövlətlərin hüquq sistemlərinin tipologiyasına dövlətlərarası ittifaqların hüquq sistemləri daxil edilir;

***-dördüncüsü,*** postsovet dövlətləri özündə davam edən prosesləri nəzərə almadan “küll halında” roman-german hüquq sistemləri tipini daxil edilirdilər və onlar müstəqillik əldə etdikdən sonra da bu hüquq sistemində qalmaqda davam edirlər.

**12.Nəticə**

Keçmiş Sovet İttifaqının sabiq respublikalarında hüquqi adaptasiya prosesləri hələ başa çatmamışdır. Bu da öz növbəsində onların ayrıca hüquq ailəsində birləşə bilmək imkanlarına əsas verir. Keçmiş sovet respublikaları tərəfindən hələlik belə bir addım atılmamışdır və bunun yaxın gələcəkdə baş verib-verməyəcəyini söyləmək çətindir. Qeyd etmək zəruridir ki, burada roman- german hüquq sisteminə daxil olan Rusiya amili də az rol oynamır.

***Hüquq sistemlərinin birləşməsi***

Dövlətlərin hüquq sistemlərinin qruplaşmalarında bir-birinə zidd olan alternativ tapmaq mümkündürmü? Dövlətlərin əsas hüquq sistemlərinin

təsnifatına münasibətdə hüquq nəzəriyyəsi və müqayisəli hüquqşünaslıqda təşəkkül tapmış ənənəni məntiqi surətdə rəsmiləşdirərək müasir dünyada hüquq ailələrinin sabit şəkildə təşəkkül tapmış aşağıdakı birləşməsini təklif edirik:

***1.Qərb hüququ (Avropa və ingilis-amerikan hüquq ailələri qrupu).*** Təbii hüquq haqqında təlimlərin ideyalarında və şəxsi yanaşmalarda təcəssüm olunan qitə hüquq ənənələri; ədalət anlayışı və iradə ifadəsi anlayışı cəmiyyətdə şəxsiyyətin sərbəstliyi, dövlətin şəxsiyyətin işlərinə qarışmaması bu qrupun meyarları qismində çıxış edə bilərlər;

***2.Şərq hüququ (dini və ənənəvi hüquq ailələri və sistemləri).*** Şəxslərarası yanaşmaya, borcun və vəzifələrin prioritetinə, şəxsiyyətin cəmiyyətdən asılılığına, fərdin ictimai mənafelər və dövlət mənafeləri naminə özünü (və öz şəxsi mənafelərini) qurban verməsini tələb edən təlim və inanclara (ehkamlara), insanın dövlətə tabeliyinə əsaslanır;

***3.İdeoloji hüquq (sosialist və postsovet, postsosialist hüquq sistemləri).*** Dövlətdə ölkənin hüquqi inkişafının tabe edildiyi hökmran kommunist ideologiyasının üstünlükləri və prinsiplərinə əsaslanan əsas hüquq tipləri arasında inqilabi və ya süni yolla yaranan hüquq sistemləridir.

Göstərilən birləşmələr çərçivəsində hüquq ailələri qrupları və ayrı-ayrı altqruplar fərqləndirilir. Belə hüquq ailələri qrupları və altqruplar müxtəlif səbəblərə görə qarışıq xarakter daşıyan dövlətlərin orijinal hüquq sistemlərindən ibarətdir. Məsələn, klassik ümumi hüquq ölkəsi olan Böyük Britaniyada onun tərkib hissəsi kimi Şotlandiya qitə hüququnun prinsip və institutlarına tərəfdar çıxır.

Belə vəziyyət dünyanın bir çox ölkələrinin də daxil olduqları hüquq ailələrində mövcuddur. Belə ki, İsrailin hüquq sistemində iudey, müsəlman, ingilis-sakson və qitə (Avropa) hüququnun elementlərinə təsadüf etmək olar. Ona görə də belə dövlətlərin hüquq sistemlərinin qarışıq xarakterə malik olması həm elmi ədəbiyyatda, həm tədris ədəbiyyatında, həm də ayrı-ayrı tədqiqat əsərlərində qeyd edilir.

## ƏDƏBİYYAT

1. Məlikova, M.F. (1988). *Dövlət və hüquq nəzəriyyəsi*. Bakı: Maarif.
2. Cəfərli, N.H. (2018). *Müqayisəli hüquqşünaslıq*. Bakı: Elm və təhsil.
3. Голубева, Л.А., & Черноков, А.Э. (2009). *Сравнительное правоведение: Учебник*. СПб.: Знание.
4. Давид, Р., & Жоффре-Спинози, К. (2009). *Основные правовые системы современности.* М.: Международные отношения.

5. Леже, Р. (2010). *Великие правовые системы современности: сравнительно-правовой подход.* М.: Волтерс Клувер.
6. Берман, Г.Дж. (2000). *Западная традиция права: эпоха формирования.* М.
7. Марченко, М.Н. (2013). *Сравнительное правоведение: Учебник.* М.: Проспект.
8. Ллойд, Д. (2007). *Идея права: репрессивное зло или социальная необходимость?* М.: Книгодел.
9. Бернам, В. (2006). *Введение в право и правовую систему США.* М.
10. Цвайгерт, К., & Кетц, Х. (2010). *Сравнительное частное право: в 2-х томах.* М.: Междунар. отношения.

## Классификация правовых систем

**Габил Курбанов***

**Абстракт.** Основу большинства правовых систем мира составляют элементы общей культуры и правовой культуры. Тот факт, что каждое государство имеет свое национальное право, отражает его социально-экономическую, политическую и культурную оригинальность. Это в свою очередь, приводит к воссозданию их национальных правовых систем. В ракурсе национальных правовых систем привлекают внимание особенности, характерные как для определенных форм государства, так и для страны с тем или иным типом права. В рамках различных объединений выделяют группы правовых семей и отдельные подгруппы, которые состоят из оригинальных правовых систем государств, носящих смешанный характер.

**Ключевые слова**: правовая семья, классификация, сравнительное правоведение, типология, правовые системы, критерии

## Classıfıcatıon of legal systems

**Habil Gurbanov***

---

* Институт права и прав человека, НАНА, старший научный сотрудник, доктор юридических наук, профессор; Баку Азербайджан
E-mail: professorqurbanov@yandex.com
https://orcid.org/0000-0002-1893-208X
**Цитировать статью:** Курбанов, Г. [2022]. Классификация правовых систем. *Журнал «Metafizika», 5*(2), с.10-28.
***История статьи:***
*Статья поступила в редакцию: 12.11.2021*
*Отправлена на доработку: 18.01.2022*
*Принята для печати: 03.06.2022*
* Institute of Law and Human Rights, ANAS, senior researcher, doctor of jurisprudence, professor; Baku Azerbaijan
E-mail: professorqurbanov@yandex.com
https://orcid.org/0000-0002-1893-208X
**To cite this article:** Gurbanov, H. [2022]. Classıfıcatıon of legal systems. *“Metafizika” journal, 5*(2), pp.10-28.
***Article history:***
*Received: 12.11.2021*
*Accepted: 03.06.2022*

**Abstract.** Most legal systems of the world are based on elements of a common culture and legal culture. The fact that each state has its own national law reflects its socio-economic, political and cultural distinction. This, in its turn, leads to the reconstruction of their national legal systems. The features that are characteristic both for certain forms of the state and for a country with one or another type of law draw attention in the context of national legal systems. Groups of legal families and separate subgroups are distinguished within the framework of various associations. Such groups of legal families and subgroups, which for various reasons are of a mixed nature, consist of the original legal systems of states.

**Keywords:** legal family, classification, comparative law, typology, legal systems, criteria

**REFERENCES**

1. Melikova, M.F. (1988). *Dovlet ve huquq nezeriyyesi*. Baku: Maarif.
2. Ceferli, N.H. (2018). *Muqayiseli huquqshunasliq*. Baku: Elm ve tehsil.
3. Golubeva, L.A., & Chernokov, A.E. (2009). *Sravnitel'noye pravovedeniye: Uchebnik.* SPb.: Znaniye.
4. David, R., & Zhoffre-Spinozi, K. (2009). *Osnovnyye pravovyye sistemy sovremennosti.* M.: Mezhdunarodnyye otnosheniya.
5. Lezhe, R. (2010). *Velikiye pravovyye sistemy sovremennosti: sravnitel'no-pravovoy podkhod.* M.: Volters Kluver.
6. Berman, G.Dzh. (2000). *Zapadnaya traditsiya prava: epokha formirovaniya*. M.
7. Marchenko, M.N. (2013). *Sravnitel'noye pravovedeniye: Uchebnik.* M.: Prospekt.
8. Lloyd, D. (2007). *Ideya prava: repressivnoye zlo ili sotsial'naya neobkhodimost'?* M.: Knigodel.
9. Bernam, V. (2006). *Vvedeniye v pravo i pravovuyu sistemu SSHA.* M.
10. Tsvaygert, K., & Ketts, X. (2010). *Sravnitel'noye chastnoye pravo: v 2-kh tomakh.* M.: Mezhdunar. otnosheniya.